# Bizim işğal edilmiş torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır

*Otuz il ərzində danışıqlar gedə bilərmi?! Otuz il ərzində Azərbaycan xalqını belə vəziyyətdə saxlamaq olarmı?! Otuz il ərzində biz ümidlə yaşayırdıq ki, beynəlxalq birlik bu məsələni həll edəcək. Bu məsələnin həlli ilə məşğul olan ölkələr, beynəlxalq təşkilatlar öz sözünü deyəcək. Dünyanın ən ali beynəlxalq orqanı – BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərəcək. Bu qətnamələr 27 ildir kağız üzərindədir.*

*Azərbaycan Respublikasının Prezidenti*
*İlham Əliyevin xalqa müraciətindən*
*Bakı, 4 oktyabr 2020-ci il.*




***Gənclik illərimdə vaxt olanda Çin filosoflarının bəzi müdrik ifadələrini oxuyurdum. Dövlət başçımızın oktyabrın 4-də Azərbaycan xalqına ünvanladığı telemüraciətinə baxanda həmin filosoflardan birinin bu məzmunda olan kəlamını xatırladım: “Həqiqətin harada olduğunu bilirsənsə, bu, öz xeyirinədir. Onu dilə gətirməyin isə xalqa xidmət etməyindir”. Doğrudur, Prezident İlham Əliyev bütün fəaliyyəti dövründə xalqa xidmət etmiş liderdir. Onun həmin gün dilə gətirdiyi böyük həqiqətlər həm xalqa misilsiz xidmət nümunəsi idi, həm də beynəlxalq birliyə, dünya ictimaiyyətinə sərt mesajlar idi.***

Yeri gəlmişkən, bu məzmunda Lev Tolstoyun da maraqlı bir deyimi var: “Həqiqət nə qədər böyük olsa da, onun haqqında danışanın öz fikirlərini ifadə edə bilməməsi həmin həqiqət haqqında təsəvvürləri kiçildə bilər”. Qətiyyətlə deyə bilərik ki, dünya ictimaiyyəti dövlət başçımızın müraciətində həqiqəti elə olduğu kimi, öz miqyasında, həqiqi çapında eşitdi. Prezident hamıya sübut etdi ki, Azərbaycan istənilən məsələdə danışıqlara, müzakirəyə, qarşı tərəfin mövqeyini eşitməyə açıq ölkədir. Bunu, bizim öz halal haqqımızı tələb etmək üçün otuz il səbrlə, təmkinlə davranmağımız da sübut edirdi.

Prezident açıq şəkildə , qətiyyətlə söylədi ki, indiki vəziyyətdə birinci günahkar Ermənistan rəhbərliyi, növbəti günahkar isə bu məsələyə biganə yanaşan və daim Ermənistanın tərəfini saxlayan, bu işğalı əbədi etmək istəyən bəzi ölkələrin siyasi dairələridir. Başqa bir həqiqət isə ondan ibarətdir ki, biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq: “ Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir”.

Dövlət başçımızın həmin müraciətinin əsas səbəblərindən biri də qondarma “Dağlıq Qarabağ respublikası”na nəfəs verən ikinci yolun (birinci yol Laçın dəhlizidir) -- Xankəndinə yük daşınması üçün istifadə edilən Xudafərin yolunun da daxil olduğu Cəbrayılın işğaldan azad edilməsi idi.

Cəbrayıl şəhərinin və həmin rayonun doqquz kəndinin işğaldan azad edildiyini deyən Prezident xatırlatdı ki, dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar: “Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Hesab edirəm ki, bu gün Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır”.

Vurğulandı ki, şanlı ordumuzun rəşadəti nəticəsində düşməndən azad edilən bütün şəhər, qəsəbə və kəndlərimizin hamısı Cocuq Mərcanlı kimi tamamilə yenidən qurulacaq və bölgəyə yeni həyat qayıdacaq: “Biz bütün şəhərləri bərpa edəcəyik.



Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik... Biz ermənilər tərəfindən bizim tarixi adlarımızı dəyişdirib tarixi saxtalaşdırmaq, eyni zamanda, Azərbaycan xalqının tarixi-mədəni irsini silmək cəhdlərinə son qoyduq. Bizim yaşayış məntəqələrinin tarixi adları bərpa edilir və bərpa ediləcəkdir”.

Dövlət başçımız həmin müraciətdə Ermənistan rəhbərliyinin bütün sivil anlayışlardan məhrum, barbar təfəkkürlü, siyasət və diplomatiyadan xəbərsiz, yalançı, alçaq və rəzil olduğunu konkret faktlarla əsaslandırdı. Azərbaycanın iyirmi yeddi il ərzində bütün dövrlərdə – danışıqların bütün dövrlərində konstruktiv mövqe göstərdiyini, ədalətli mövqe tutduğunu deyən Prezident sual edir: “Ancaq bunun müqabilində nə gördük? Təcavüzkar daha da azğınlaşıb. Təcavüzkarın tamahı daha da böyüyüb, bizim dədə-baba torpağımıza göz dikib. Nəticədə işğal edilmiş bütün torpaqları qondarma “Dağlıq Qarabağ respublikası”na aid edib, yeni xəritələr dərc edib və bu xəritələrdə işğal edilmiş bütün ərazilər Dağlıq Qarabağ kimi təqdim edilir. Ondan sonra nə oldu? Ondan sonra bəyan etdilər ki, bir qarış torpağı Azərbaycana qaytarmayacağıq”.

Ancaq tənqid ünvanına çevrilən təkcə işğalçı ölkənin sərsəm, heç bir normal düşüncəyə malik olmayan dövlət başçısı deyildi. Azərbaycan Prezidenti Nikol Paşinyanın azğınlaşmasına stimul yaratmış dairələri də konkret adlarını çəkməklə açıq və ciddi şəkildə tənqid etdi. İlham Əliyev xatırladtı ki, biz Minsk qrupunun həmsədr ölkələrinə, həmsədr olan səfirlərə, digər beynəlxalq təşkilatlara, Avropa İttifaqının nümayəndələrinə dəfələrlə demişdik ki, Ermənistana təsir edin, sanksiyalar tətbiq edin, təzyiq edin. Belə olmaz. Əgər güclü təsir olmasa, Ermənistan daha da azğınlaşacaq, daha da quduracaq, yeni iddialar ortaya atacaq: “Eşitmədilər məni. Mən istəyirdim bu məsələ sülh yolu ilə həll olunsun. Eşitmədilər. Hesab edirdilər ki, Azərbaycan xalqı və mən – Azərbaycan Prezidenti bu vəziyyətlə barışacağam?! Hesab edirdilər ki, bizim müqəddəs şəhərimiz olan Şuşa erməni tapdağında qalacaq, mən bununla barışacağam?! Azərbaycan xalqının tarixinə zərbə vuran erməni cəlladları ilə biz danışıqlarmı aparmalıyıq? Azərbaycan xalqı təhqir edildi, Şuşada qondarma rejimin başçısı özünə “andiçmə mərasimi” keçirmişdir”.

Bütün bunların günümüzün reallığı, bölgəmizin həqiqətləri olduğunu hamı bilsə də, ikili standart müəllifləri yenə də öz mənfi əməllərindən əl çəkmirlər. Yenə də utanmadan, xəcalət çəkmədən, tutduğu vəzifənin məsuliyyətini dərk etmədən dövlət başçımıza müraciət edirlər ki, münaqişə danışıqlar yolu ilə həll edilsin. İlham Əliyevin onlara cavabı isə olduqca konkretdir: “Mənim şərtim birdir – çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın



ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik”.

Diqqətli tamaşaçılar başqa bir detalın da fərqində idilər. Belə ki, Azərbaycan Prezidenti müraciətin son cümlələrini məxsusi tonla, daha qətiyyətlə və kəsərli şəkildə dedi: “Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

*İttifaq MİRZƏBƏYLİ,*
*“Xalq qəzeti”*